# Mədəniyyət evinin uğurları



Böyük tarixi keçmişə malik olan Maştağa qəsəbəsi təkcə öz adı ilə yox, həm də burada ucaldılmış abidələrlə də qədim tarixə malikdir. Qəsəbənin adı və tarixi haqqında müxtəlif fikirlər vardır. Bu baxımdan Maştağa mədəniyyət evinin də öz tarixi vardır. Respublikanın xalq artisti Hacağa Abbasovun adını daşıyan Maştağa Mədəniyyət Evi fəaliyyətə 1924-cü ildən başlamışdır. Mədəniyyət evinə ilk dəfə 20-ci illərdə görkəmli mədəniyyət xadimi Məhəmməd Qafqazlı rəhbərlik etmişdir. İndi bu mədəniyyət ocağı nəinki Sabunçu rayonunun, eyni zamanda, respublikamızın qabaqcıl mədəniyyət müəssisələrindən biridir. Onu da qeyd etmək lazımdır ki, hazırda qəsəbə əhalisinin mədəni tələbatını ödəmək üçün burada yeni mədəniyyət evi tikilmiş və bu günlərdə əhalinin xidmətinə verilməsi planlaşdırılmışdır.

Mədəniyyət evinin, müdiri Kamal Qədimovla söhbət edərkən o, bildirdi ki, mədəniyyət evi son zamanlar fəaliyyətini daha da genişləndirərək bir çox fəaliyyət kollektivləri yaratmışdır. Hazırda mədəniyyət evində 20-yə yaxın dərnək, birlik, xalq kollektivləri və pullu xidmət sahələri fəaliyyət göstərir. Kamal müəllim onu da qeyd etdi ki, mədəniyyət evində xalq teatrı, "İstedad" xalq çalğı alətləri ansamblı, "Xalq kollektivi" bədii qiraət, meyxana birliyi, uşaq dram dərnəyi, ilkin tibbi yardım kursu, rəqs, kompüter, məktəbəqədər tərbiyə, rəssamlıq kursu və dərnəklər fəaliyyət göstərir. Direktor onu da qeyd etdi ki, mədəniyyət evi qəsəbənin müxtəlif təhsil və məktəbəqədər tərbiyə müəssisələri ilə əlaqəli şəkildə iş aparır.

Mədəniyyət evinin təqvim günlərinə həsr olunmuş tədbirləri də təqdirəlayiqdir. Məsələn, 20 Yanvar hüzn günü ilə əlaqədar "Qanlı Yanvar qan yaddaşımızdır" adlı ədəbi-bədii kompozisiya, Nardaran qəsəbə klubu ilə birgə keçirdiyi Gənclər gününə həsr olunmuş "Gənclər bizim gələcəyimizdir" adlı "dəyirmi masa", Sabunçu rayonunun 255 saylı məktəbində Bilgəh qəsəbə, Ə.Paşayev adına II Zabrat, Nardaran qəsəbə klubları ilə birgə Xocalı faciəsinə həsr olunmuş "Xocalımız qan ağlayır" adlı tədbir, 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş "Əziz ömrün akkordları", "Bir dəfə yüksələn bayraq bir daha enməz", Milli dirçəliş gününə həsr olunmuş "Xalqın nicat yolu" adlı konsert proqramı bu qəbildəndir.

Onu da qeyd etmək lazımdır ki, mədəniyyət evi ahıl insanlar, ağsaqqallar arasında da geniş iş aparır. Bu baxımdan Ramazan bayramı ilə əlaqədar silsilə tədbirlər buna misal ola bilər. K.Qədimovla söhbətdən o da aydın oldu ki, Mədəniyyət evi "N" saylı hərbi hissələrdə də müxtəlif tədbirlər həyata keçirir, hərbiçilər asudə vaxtını düzgün təşkili üçün əlindən gələni edir. Milli Dirçəliş Günü, Dünya azərbaycanlılarının həmrəyliyi günü, "Qanlı Yanvar", "Qarabağın işğalı ilə əlaqədar silsilə tədbirlər buna misal ola bilər. Bundan başqa ana dilimizin saflığını qorumaq məqsədilə keçirilən bir çox klub tədbirləri də mühüm yer tutur. Mədəniyyət evində keçirilən Azərbaycan dili və musiqi gününə həsr olunmuş "Milli musiqi günü"



ana, can ana" adlı konsert, Bilgəh qəsəbə internat məktəbində Novruz bayramı ilə əlaqədar "Yurdumuza bahar gəlir", Naradaran qəsəbə klubu, Bilgəh qəsəbə mədəniyyət evi ilə birgə ulu öndərimiz Heydər Əliyevin anım gününə həsr olunmuş dəyirmi masa, Dünya Azərbaycanlılarının Həmrəyliyi gününə həsr olunmuş "Azərbaycan dünyam mənim" adlı tədbir, "Bilik günü", "Uzun və "Bilik günü", "Milli bayraq günü", "Konstitusiya Günü", "Dünya azərbaycanlılarının həmrəyliyi günü" adlı tədbirlər mədəniyyət evinin təqvim günlərinə həsr olunmuş tədbirlərində mühüm yer tutur. Bir sözlə, Maştağa qəsəbə Mədəniyyət evinin kollektivi əhaliyə nümunəvi xidmət göstərmək üçün əlindən gələn hər şeyi edir.

**Zabit CAVADOV,**
**"Respublika".**